**AZƏRBAYCAN RESPUBLİKASININ DÖVLƏT STATİSTİKA KOMİTƏSİ**

**Q Ə R A R**

**№ 42/13**

**Bakı şəhəri** **18 noyabr 2024-cü il**

**"Malların satışı, işlərin görülməsi və xidmətlərin göstərilməsi haqqında" 12-ticarət №-li aylıq rəsmi statistika hesabatı forması və onun doldurulmasına dair göstərişin təsdiq edilməsi haqqında" Azərbaycan Respublikası Dövlət Statistika Komitəsinin 2019-cu il 28 dekabr tarixli 36/13 nömrəli qərarında dəyişiklik edilməsi barədə**

Azərbaycan Respublikası Prezidentinin 2009-cu il 24 iyun tarixli 115 nömrəli Fərmanı ilə təsdiq edilmiş "Azərbaycan Respublikasının Dövlət Statistika Komitəsi haqqında Əsasnamə"nin 9.6-cı və 14.4-cü bəndlərini rəhbər tutaraq Azərbaycan Respublikasının Dövlət Statistika Komitəsi

**qərara alır:**

1. Azərbaycan Respublikası Dövlət Statistika Komitəsinin 2019-cu il 28 dekabr tarixli 36/13 nömrəli qərarı ilə təsdiq edilmiş "Malların satışı, işlərin görülməsi və xidmətlərin göstərilməsi haqqında" 12-ticarət №-li aylıq rəsmi statistika hesabatı forması və "Malların satışı, işlərin görülməsi və xidmətlərin göstərilməsi haqqında" 12-ticarət №-li aylıq rəsmi statistika hesabatı formasının doldurulmasına dair göstəriş" yeni redaksiyada verilsin (əlavə olunur).

2. Bu Qərar 2025-ci il fevralın 1-dən qüvvəyə minir.

3. Qərar qəbul edildiyi gündən üç gün müddətində Azərbaycan Respublikasının Hüquqi Aktların Dövlət Reyestrinə daxil edilməsi üçün Azərbaycan Respublikasının Ədliyyə Nazirliyinə təqdim edilsin.

4. Aparatın Ticarət statistikası şöbəsinə tapşırılsın ki, bu qərardan irəli gələn məsələləri həll etsin.

5. Qərarın icrasına nəzarət Statistika işlərinin əlaqələndirilməsi və strateji planlaşdırma şöbəsinə həvalə olunsun.

**Sədrin səlahiyyətlərini müvəqqəti icra edən, sədrin birinci müavini** **Vahab Məmmədov**

Əlavə 1

Azərbaycan Respublikası Dövlət Statistika Komitəsinin 2024-cü il 18 noyabr tarixli 42/13 nömrəli qərarı ilə təsdiq edilmişdir

**12-ticarət №-li forma**
**Aylıq**

# R Ə S M İ  S T A T İ S T İ K A  H E S A B A T I

## Malların satışı, işlərin görülməsi və xidmətlərin göstərilməsi haqqında

"Rəsmi statistika haqqında" Azərbaycan Respublikasının Qanununa uyğun olaraq hesabat forması üzrə məlumatların konfidensiallığına zəmanət verilir və onlardan yalnız ümumiləşdirilmiş şəkildə istifadə ediləcəkdir

Hesabat təqdim edən statistik vahidin:

adı ________________________________

inzibati ərazi vahidinin və yaşayış məntəqəsinin adı göstərilməklə dəqiq ünvanı ____________________________

________________________________

| **Hesabat formasının kodu** | **Statistik vahidin identifikasiya (statistik) kodu** | **VÖEN** |
|---|---|---|
| **03108213** | | |

Hesabat əsas fəaliyyəti ticarət, avtonəqliyyat vasitələrinə texniki qulluq göstərilməsi və onların təmiri olan hüquqi şəxslər (onların nümayəndəlik və filialları) tərəfindən elektron formada Dövlət Statistika Komitəsinin internet səhifəsində (www.stat.gov.az) real vaxt rejimində təqdim edilir:

- kiçik, orta və iri sahibkarlıq subyektləri **aylıq** dövriliklə, hesabat ayından sonrakı ayın 5-ci iş günü saat 13.00-dək;

- mikro sahibkarlıq subyektləri **rüblük** dövriliklə, hesabat rübündən sonrakı ayın 20-dək.

Hesabat formasına və onun doldurulmasına dair rəy və təkliflərinizi Azərbaycan Respublikasının Dövlət Statistika Komitəsinə göndərə bilərsiniz.
Elektron poçt ünvanı: hesabat@stat.gov.az

**20___ ilin _____________ ayında**

**I bölmə. Ümumi iqtisadi göstəricilər**

**(min manatla, onda bir dəqiqliklə)**

| **Göstəricinin adı** | **Sətrin kodu** | **Hesabat ayında (rübündə)** [1] | **Əvvəlki ayda** [2] |
|---|---|---|---|
| **A** | **B** | **1** | **2** |
| Malların satışı, işlərin görülməsi və xidmətlərin göstərilməsindən gəlirlər (qaytarılan mallar və ticarət güzəştləri nəzərə alınmaqla, ƏDV və aksiz vergisi çıxılmaqla) | 1 | | |
| ondan: pərakəndə və topdansatış ticarət fəaliyyətindən | 1.1 | | |
| avtonəqliyyat vasitələrinə texniki qulluq göstərilməsi və onların təmiri üzrə xidmətlərdən | 1.2 | | |
| kənd təsərrüfatı fəaliyyətindən | 1.3 | | |
| sənaye fəaliyyətindən | 1.4 | | |
| tikinti fəaliyyətindən | 1.5 | | |
| nəqliyyat xidmətlərindən | 1.6 | | |
| digər fəaliyyətlərdən | 1.7 | | |
| 1-ci sətirdən malların ixracından və qeyri-rezidentlərə göstərilmiş xidmətlərdən gəlir | 2 | | |
| 1.1-ci sətirdən topdansatış ticarətdə müqavilə əsasında vasitəçilik (əmtəə brokerlərinin və digər vasitəçilərin) fəaliyyətindən əldə edilən gəlir | 3 | | |
| Pərakəndə ticarət dövriyyəsi, ƏDV və aksiz vergisi daxil olmaqla | 4 | | |
| ondan: ərzaq malları, içkilər və tütün məmulatları üzrə | 4.1 | | |
| 4-cü sətirdən elektron ticarət dövriyyəsi | 5 | | |
| 4-cü sətirdən POS - terminal vasitəsilə ödənişlərin dəyəri | 6 | | |
| Hesabat dövrünün sonuna pərakəndə ticarət şəbəkəsində mal ehtiyatlarının qalığı, ƏDV və aksiz vergisi daxil olmaqla | 7 | | x |
| Topdansatış ticarət dövriyyəsi, ƏDV və aksiz vergisi daxil olmaqla | 8 | | |
| ondan: ərzaq malları, içkilər və tütün məmulatları üzrə | 8.1 | | |
| 8-ci sətirdən elektron ticarət dövriyyəsi | 9 | | |

| | | | |
|---|---|---|---|
| Hesabat dövrünün sonuna topdansatış ticarət şəbəkəsində mal ehtiyatlarının qalığı, ƏDV və aksiz vergisi daxil olmaqla | 10 | | x |
| Əhaliyə göstərilmiş ödənişli xidmətlərin dəyəri, ƏDV daxil olmaqla | 11 | | |
| ondan: xidmətlərə görə elektron ödəmələrin dəyəri | 11.1 | | |
| İctimai iaşənin dövriyyəsi, ƏDV daxil olmaqla | 12 | | |

**II bölmə. Satılmış malların və göstərilmiş xidmətlərin strukturu**

**(min manatla, onda bir dəqiqliklə)**

| Malın və xidmətin[3] | | Sətrin kodu[4] | Satılmış malların və göstərilmiş xidmətlərin dəyəri | | Hesabat dövrünün sonuna mal ehtiyatlarının qalığı |
|---|---|---|---|---|---|
| kodu | adı | | hesabat ayında (rübündə)[1] | əvvəlki ayda[2] | |
| A | B | C | 1 | 2 | 3 |
| | | | | | |
| | | | | | |
| | | | | | |
| | | | | | |
| | | | | | |
| | | | | | |
| | | | | | |

[1] mikro sahibkarlıq subyektləri hesabat rübü üzrə məlumatları göstərir;

[2] mikro sahibkarlıq subyektləri bu sütunu doldurmur;

[3] malın və xidmətin kodu və adı bu formanın əlavəsində verilmişdir;

[4] xidmətlər üzrə - 60, pərakəndə satış üzrə - 70, topdansatış üzrə - 80 kodu yazılır.

Qeyd: Hüquqi şəxslərin başqa inzibati ərazi vahidlərində yerləşən və bilavasitə hesabat təqdim edə bilməyən yerli vahidlərinə (filiallarına, nümayəndəliklərinə və s.) aid statistik məlumatlar da onların faktiki fəaliyyət göstərdiyi ərazi üzrə doldurulur.

Hesabatın tərtib olunmasına sərf edilən vaxt* ____________________ (adam-saat)

* Rəsmi statistika hesabatlarının tərtib olunmasına sərf olunan vaxt adam-saatla ölçülür və hesabatın tərtib olunmasında iştirak edən işçilərin (işçinin) sayı onların (onun) həmin hesabatın tərtib olunmasına sərf etdikləri (etdiyi) vaxta vurulmaqla müəyyənləşdirilir.

____________________________________ ______________________________

İcraçının vəzifəsi, soyadı, tel.nömrəsi Rəhbərin soyadı, imzası

“_____”___________________20___ il

**Hesabat formasına əlavə**

**Pərakəndə satış üzrə malların siyahısı**

| **Məhsul Növləri Təsnifatı üzrə kodu** | **Məhsul Növləri Təsnifatı üzrə adı** |
|---|---|
| A | B |
| | *ƏRZAQ MALLARI üzrə* |
| 47.00.11.10 | Meyvələrin pərakəndə satışı |
| 47.00.11.31 | Kartofun pərakəndə satışı |
| 47.00.11.39 | Tərəvəzin pərakəndə satışı |
| 47.00.12.00 | Emal edilmiş meyvə və tərəvəzin pərakəndə satışı |
| 47.00.13.10 | Ətin pərakəndə satışı |
| 47.00.13.20 | Ev quşları ətinin pərakəndə satışı |
| 47.00.14.10 | Ət məhsullarının pərakəndə satışı *(quş əti məhsulları daxil edilməklə)* |
| 47.00.14.20 | Ət konservlərinin pərakəndə satışı *(quş ətindən konservlər daxil edilməklə)* |
| 47.00.15.10 | Balığın pərakəndə satışı |
| 47.00.15.20 | Balıq konservlərinin pərakəndə satışı |
| 47.00.15.30 | Xərçəngkimilər və molyuskların pərakəndə satışı |
| 47.00.16.00 | Çörək məhsullarının pərakəndə satışı |
| 47.00.17.10 | Pirojna və undan hazırlanan məmulatların pərakəndə satışı |
| 47.00.17.20 | Şəkər qatılmış şirniyyat məmulatlarının pərakəndə satışı |
| 47.00.18.11 | Südün pərakəndə satışı |
| 47.00.18.12 | Süd konservlərinin pərakəndə satışı |
| 47.00.18.13 | Kərə yağının pərakəndə satışı |
| 47.00.18.14 | Üzlü süd məhsullarının pərakəndə satışı |
| 47.00.18.15 | Pendir və brınzanın pərakəndə satışı |
| 47.00.18.16 | Xamanın pərakəndə satışı |
| 47.00.18.17 | Dondurmanın pərakəndə satışı |
| 47.00.18.19 | Sair süd məhsullarının pərakəndə satışı |
| 47.00.19.00 | Yumurtanın pərakəndə satışı |
| 47.00.21.00 | Qəhvə, çay, kakao və ədviyyatın pərakəndə satışı |
| 47.00.22.11 | Bitki yağının pərakəndə satışı |
| 47.00.22.12 | Ərinmiş qida piylərinin pərakəndə satışı |
| 47.00.22.13 | Marqarin məhsullarının pərakəndə satışı |
| 47.00.23.00 | Homogenləşdirilmiş qida məhsullarının və tibbi məqsədli qida məhsullarının pərakəndə satışı |
| 47.00.24.11 | Qəndin pərakəndə satışı |
| 47.00.24.12 | Mürəbbə, cem, povidlo və s. pərakəndə satışı |
| 47.00.24.13 | Unun pərakəndə satışı |
| 47.00.24.14 | Duzun pərakəndə satışı |

| | |
|---|---|
| 47.00.24.15 | Yarma və paxlalıların pərakəndə satışı |
| 47.00.24.16 | Makaronun pərakəndə satışı |
| 47.00.24.90 | Sair qida məhsullarının pərakəndə satışı |
| 47.00.25.10 | Araq və araq məmulatlarının pərakəndə satışı |
| 47.00.25.20 | Konyakın pərakəndə satışı |
| 47.00.25.30 | Şərabın pərakəndə satışı |
| 47.00.25.40 | Pivənin pərakəndə satışı |
| 47.00.25.50 | Şampan şərabının pərakəndə satışı |
| 47.00.25.60 | Sair spirtli içkilərin pərakəndə satışı |
| 47.00.26.10 | Spirtsiz içkilərin pərakəndə satışı |
| 47.00.26.20 | Mineral suların pərakəndə satışı |
| 47.00.27.00 | Tütün məmulatlarının pərakəndə satışı |
| 47.00.87.10 | Diri kənd təsərrüfatı heyvanlarının pərakəndə satışı (diri mal-qara, qoyun-keçi, quşlar, atlar və s. diri heyvanlar ) |
| 47.00.87.20 | Digər qruplara daxil edilməyən kənd təsərrüfatı xammalının pərakəndə satışı |
| | ***QEYRİ-ƏRZAQ MALLARI üzrə*** |
| 45.11.21 | İxtisaslaşdırılmış mağazalarda yeni sərnişin avtonəqliyyat vasitələrinin pərakəndə satışı |
| 45.11.22.00 | İstifadədə olmuş sərnişin avtonəqliyyat vasitələrinin pərakəndə satışı |
| 45.11.23.00 | Təcili-tibbi yardım maşınları, mikroavtobuslar və s. kimi yeni, ixtisaslaşdırılmış sərnişin avtonəqliyyat vasitələrinin və yüksək keçid qabiliyyətinə malik avtonəqliyyat vasitələrinin (çəkisi 3,5 tondan artıq olmayan) ixtisaslaşdırılmış mağazalarda pərakəndə satışı |
| 45.11.31.00 | Minik və yük avtonəqliyyat vasitələrinin internet vasitəsilə pərakəndə satışı |
| 45.11.39.00 | Digər qruplara daxil edilməyən sair minik və yüngül avtonəqliyyat vasitələrinin pərakəndə satışı |
| 45.19.21.00 | Yük avtomobillərinin, arabaların, qoşquların, yarımqoşquların və avtobusların ixtisaslaşdırılmış pərakəndə satışı |
| 45.19.22.00 | Yaşayış üçün avtofurqonların, avtoqoşquların və sair turist avtonəqliyyatı vasitələrinin pərakəndə satışı |
| 45.19.31.00 | Sair avtomobillərin internet vasitəsilə pərakəndə satışı |
| 45.19.39.00 | Digər qruplara daxil edilməyən avtonəqliyyat vasitələrinin sair pərakəndə satışı |
| 45.32.11.00 | Şinlərin ixtisaslaşdırılmış pərakəndə satışı |
| 45.32.12.00 | Avtonəqliyyat vasitələri üçün sair hissə və ləvazimatların ixtisaslaşdırılmış pərakəndə satışı |
| 45.32.21.00 | Avtonəqliyyat vasitələri üçün hissə və ləvazimatların internet vasitəsilə pərakəndə satışı |
| 45.32.22.00 | Avtonəqliyyat vasitələri üçün hissə və ləvazimatların poçt vasitəsilə pərakəndə satışı |
| 45.32.29.00 | Avtonəqliyyat vasitələri üçün digər qruplara daxil edilməyən hissə və ləvazimatların sair pərakəndə satışı |
| 45.40.20.00 | Motosikletlərin və onlara aid olan hissə və ləvazimatların ixtisaslaşdırılmış pərakəndə satışı |

| | |
|---|---|
| 45.40.30.00 | Motosikletlərin və onlara aid olan hissə və ləvazimatların sair pərakəndə satışı |
| 47.00.31.00 | Kompüterlərin, periferiya qurğularının və proqram təminatının pərakəndə satışı |
| 47.00.32.00 | Telekommunikasiya qurğularının pərakəndə satışı |
| 47.00.33.10 | Radioqəbuledicilərin pərakəndə satışı |
| 47.00.33.20 | Televizorların pərakəndə satışı |
| 47.00.33.30 | Maqnitafonların pərakəndə satışı |
| 47.00.33.40 | Videomaqnitafonların pərakəndə satışı |
| 47.00.33.90 | Sair aparatların pərakəndə satışı |
| 47.00.41.00 | Dəmir (tikinti) məmulatlarının pərakəndə satışı |
| 47.00.42.00 | Rəng, lak və emaldan hazırlanan məmulatların pərakəndə satışı |
| 47.00.43 | Təbəqə şüşələrin pərakəndə satışı |
| 47.00.44.00 | Ot biçmək və şitil əkmək üçün avadanlıqların pərakəndə satışı |
| 47.00.45.00 | Su kəməri və istilik avadanlığı, istismar materialları və ləvazimatlarının pərakəndə satışı |
| 47.00.46.00 | Santexnika avadanlıqlarının pərakəndə satışı |
| 47.00.47.00 | Əl alətlərinin pərakəndə satışı |
| 47.00.49.10 | Daş kubikin pərakəndə satışı |
| 47.00.49.20 | Kərpicin pərakəndə satışı |
| 47.00.49.30 | Sementin pərakəndə satışı |
| 47.00.49.40 | Şiferin pərakəndə satışı |
| 47.00.49.50 | Üzlük saxsı piltələrin pərakəndə satışı |
| 47.00.49.60 | Hissələr yığımı, təsərrüfat blokları daxil edilməklə, hazır bağ evlərinin pərakəndə satışı |
| 47.00.49.70 | Ağac (tikinti) materiallarının pərakəndə satışı |
| 47.00.49.90 | Sair tikinti materiallarının pərakəndə satışı |
| 47.00.51.10 | Pambıq parçaların pərakəndə satışı |
| 47.00.51.20 | Yun parça və yaylıqların pərakəndə satışı |
| 47.00.51.30 | İpək parçaların pərakəndə satışı |
| 47.00.51.40 | Kətan parçaların pərakəndə satışı |
| 47.00.51.60 | Sair toxuculuq məmulatlarının pərakəndə satışı |
| 47.00.51.70 | Qalantereya məmulatlarının pərakəndə satışı |
| 47.00.51.80 | Sapın pərakəndə satışı |
| 47.00.52.00 | Pərdə və tül pərdələrin pərakəndə satışı |
| 47.00.53.10 | Divar kağızının pərakəndə satışı |
| 47.00.53.20 | Linoleumun və sair döşəmə örtüklərinin pərakəndə satışı |
| 47.00.53.30 | Xalça və xalça məmulatlarının pərakəndə satışı |
| 47.00.54.10 | Soyuducuların pərakəndə satışı |
| 47.00.54.20 | Paltaryuyan maşınların pərakəndə satışı |
| 47.00.54.30 | Tozsoranların pərakəndə satışı |
| 47.00.54.40 | Tikiş maşınlarının pərakəndə satışı |
| 47.00.54.50 | Elektrik ütülərinin pərakəndə satışı |

| | |
|---|---|
| 47.00.54.90 | Sair elektrik məişət cihazlarının pərakəndə satışı |
| 47.00.55.00 | Məişət mebellərinin pərakəndə satışı |
| 47.00.56.10 | Çilçıraqların pərakəndə satışı |
| 47.00.56.90 | Sair işıqlandırma cihazlarının pərakəndə satışı |
| 47.00.57.00 | Ağac, mantar və hörmə məmulatlarının pərakəndə satışı |
| 47.00.58 | Musiqi alətlərinin və partituraların pərakəndə satışı |
| 47.00.59.10 | Şüşə qab-qacaqların pərakəndə satışı |
| 47.00.59.20 | Çini-saxsı qabların pərakəndə satışı |
| 47.00.59.30 | Metal qab-qacaqların pərakəndə satışı |
| 47.00.59.50 | Qeyri-elektrik məişət cihazlarının, digər qruplara daxil edilməyən məmulat və avadanlıqların pərakəndə satışı |
| 47.00.61.00 | Kitabların pərakəndə satışı |
| 47.00.62.00 | Qəzet və jurnalların pərakəndə satışı |
| 47.00.63 | Dəftərxana ləvazimatlarının pərakəndə satışı |
| 47.00.64 | Musiqi və video yazıların pərakəndə satışı |
| 47.00.65.10 | İdman mallarının pərakəndə satışı |
| 47.00.65.20 | Velosiped və mopedlərin pərakəndə satışı |
| 47.00.66.00 | Kempinq avadanlıqlarının pərakəndə satışı |
| 47.00.67.00 | Oyun və oyuncaqların pərakəndə satışı |
| 47.00.68.00 | Poçt markaları və sikkələrin pərakəndə satışı |
| 47.00.69.00 | Suvenirlərin pərakəndə satışı |
| 47.00.71.10 | Paltarın və alt geyimlərinin pərakəndə satışı |
| 47.00.71.20 | Baş geyimlərinin pərakəndə satışı |
| 47.00.71.30 | Trikotaj məmulatlarının pərakəndə satışı |
| 47.00.71.40 | Xəz və xəz məmulatlarının pərakəndə satışı |
| 47.00.71.50 | Corab məmulatlarının pərakəndə satışı |
| 47.00.71.90 | Sair geyimin pərakəndə satışı |
| 47.00.72 | Ayaqqabının pərakəndə satışı |
| 47.00.73.00 | Dəridən hazırlanan məmulatların və yol ləvazimatlarının pərakəndə satışı |
| 47.00.74.10 | Dərman vasitələrinin pərakəndə satışı |
| 47.00.74.20 | Sarğı materiallarının pərakəndə satışı |
| 47.00.74.90 | Sair əczaçılıq məhsullarının pərakəndə satışı |
| 47.00.75.00 | Tibb vasitələrinin, o cümlədən ortopediya məmulatlarının pərakəndə satışı |
| 47.00.76.00 | Kosmetika məmulatının və tualet ləvazimatlarının pərakəndə satışı |
| 47.00.77.00 | Güllərin, bitkilərin və toxumların pərakəndə satışı |
| 47.00.78.00 | Gübrələrin və aqrokimyəvi məhsulların pərakəndə satışı |
| 47.00.79.10 | Ev heyvanlarının pərakəndə satışı (dekorativ balıqlar və quşlar, tısbağa və s.) |
| 47.00.79.20 | Ev heyvanları üçün yem məhsullarının pərakəndə satışı |
| 47.00.81.10 | Avtomobil benzininin pərakəndə satışı |
| 47.00.81.20 | Dizel yanacağının pərakəndə satışı |
| 47.00.81.30 | Yağların pərakəndə satışı |
| 47.00.82.10 | Saatların pərakəndə satışı |
| 47.00.82.20 | Zərgərlik məmulatlarının pərakəndə satışı |

| | |
|---|---|
| 47.00.83.10 | Fotoaparatların pərakəndə satışı |
| 47.00.83.20 | Sair foto ləvazimatının, optik və dəqiq cihazların pərakəndə satışı |
| 47.00.84.11 | Paltar sabununun pərakəndə satışı |
| 47.00.84.12 | Əl-üz sabununun pərakəndə satışı |
| 47.00.84.13 | Sintetik yuyucu maddələrin pərakəndə satışı |
| 47.00.85 | Məişət təyinatlı yanacağın, balon qazının, daş kömürün və odunun pərakəndə satışı |
| 47.00.86.00 | Digər qruplara daxil edilməyən sair qeyri-ərzaq təsərrüfat mallarının pərakəndə satışı |
| 47.00.88.00 | Digər qruplara daxil edilməyən maşın və avadanlıqların pərakəndə satışı |
| 47.00.89.00 | Digər qruplara daxil edilməyən qeyri-ərzaq qeyri-təsərrüfat mallarının pərakəndə satışı |
| 47.00.91.00 | Əntiq əşyaların pərakəndə satışı |
| 47.00.92.00 | İkinci əl kitabların mağazalarda pərakəndə satışı |
| 47.00.99.00 | Sair ikinci əl malların mağazalarda pərakəndə satışı |

**Topdansatış üzrə malların siyahısı**

| **Məhsul Növləri Təsnifatı üzrə kodu** | **Məhsul Növləri Təsnifatı üzrə adı** |
|---|---|
| A | B |
| | *ƏRZAQ MALLARI üzrə* |
| 46.21.11.00 | Taxılın topdan satışı |
| 46.21.12.00 | Toxumların (yağlı toxumlardan başqa) topdan satışı |
| 46.21.13.00 | Yağlı toxumların və tərkibində yağ olan meyvələrin topdan satışı |
| 46.21.14.00 | Yem məhsullarının topdan satışı |
| 46.21.19.00 | Digər qruplara daxil edilməyən kənd təsərrüfatı xammalının topdan satışı |
| 46.21.20.00 | Emal edilməmiş tütünün topdan satışı |
| 46.23.10.00 | Diri heyvanların topdan satışı |
| 46.31.11.10 | Təzə meyvələrin topdan satışı |
| 46.31.11.20 | Təzə tərəvəzin topdan satışı |
| 46.31.11.30 | Kartofun topdan satışı |
| 46.31.12.00 | Emal edilmiş meyvə və tərəvəzin topdan satışı |
| 46.32.11.00 | Ətin, ev və ov quşlarının topdan satışı |
| 46.32.12.00 | Ət məhsullarının topdan satışı (ev quşlarının ət məhsulları da daxil edilməklə) |
| 46.33.11.00 | Süd məhsullarının topdan satışı |
| 46.33.12.00 | Yumurtaların topdan satışı |
| 46.33.13.00 | Qida yağı və piylərinin topdan satışı |
| 46.34.11.00 | Meyvə və tərəvəz şirələrinin, mineral suların və spirtsiz içkilərin topdan satışı |
| 46.34.12.00 | Spirtli içkilərin topdan satışı |

| | |
|---|---|
| 46.35.10.00 | Tütün məmulatlarının topdan satışı |
| 46.36.11.00 | Şəkərin topdan satışı |
| 46.36.12.00 | Çörək-bulka məmulatlarının topdan satışı |
| 46.36.13.00 | Şokolad və şəkərli şirniyyat məmulatlarının topdan satışı |
| 46.37.10.00 | Qəhvə, çay, kakao və ədviyyatın topdan satışı |
| 46.38.10.00 | Balıq, xərçəngkimilər və molyuskların topdan satışı |
| 46.38.21.00 | Homogenləşdirilmiş qida məhsullarının və tibbi məqsədli qida məhsullarının topdan satışı |
| 46.38.29.00 | Digər qruplara daxil edilməyən sair ərzaq məhsullarının topdan satışı |
| | ***QEYRİ-ƏRZAQ MALLARI üzrə*** |
| 45.11.11.00 | Sərnişin avtonəqliyyat vasitələrinin topdan satışı |
| 45.11.12.00 | İxtisaslaşdırılmış sərnişin nəqliyyatı vasitələrinin, təcili-tibbi yardım maşınlarının və mikroavtobusların, xizəkli-tırtıllı avtomobillərin topdan satışı (yük götürmə qabiliyyəti 3,5 tona qədər) |
| 45.19.11.00 | Yük avtomobillərinin, arabaların, qoşquların, yarımqoşquların və avtobusların topdan satışı |
| 45.19.12.00 | Yaşayış üçün avtofurqonlar və avtoqoşquların və sair turist avtonəqliyyatı vasitələrinin topdan satışı |
| 45.31.11.00 | Avtonəqliyyat vasitələri üçün rezin şinlərin və şin üçün kameraların topdan satışı |
| 45.31.12.00 | Avtonəqliyyat vasitələri üçün sair hissə və ləvazimatların topdan satışı |
| 45.40.10.00 | Motosikletlərin və onlara aid olan hissə və ləvazimatların topdan satışı |
| 46.22.10.00 | Güllərin və bitkilərin topdan satışı |
| 46.24.10.00 | Xam və aşılanmış dərilərin topdan satışı |
| 46.41.11.00 | Toxuma üçün ipliyin topdan satışı |
| 46.41.12.00 | Parçaların topdan satışı |
| 46.41.13.00 | Kətandan yeməkxana ağlarının, pərdələrin və evdə işlədilən müxtəlif parça materiallarının topdan satışı |
| 46.41.14.00 | Qalantereya mallarının topdan satışı |
| 46.42.11.10 | Üst geyimin topdan satışı |
| 46.42.11.20 | Alt geyimin topdan satışı |
| 46.42.11.30 | Xəz geyimlərin topdan satışı |
| 46.42.11.50 | Geyim aksesuarlarının topdan satışı |
| 46.42.12.00 | Ayaqqabının topdan satışı |
| 46.43.11 | Radio, televiziya və fotoqrafik cihazlardan başqa, elektrik məişət cihazlarının topdan satışı |
| 46.43.12.00 | Radio, televiziya, video və rəqəmli videodisk aparatlarının topdan satışı |
| 46.43.13.00 | Qramafon vallarının, audiolent və videolentlərin, kompakt disklərin və rəqəmli videodisklərin (yazılmamış lentlərdən başqa) topdan satışı |
| 46.43.14.00 | Fotoqrafik və optik cihazların topdan satışı |
| 46.44.11.00 | Şüşə, çini və saxsıdan olan məmulatların topdan satışı |
| 46.44.12.00 | Təmizləyici vasitələrin topdan satışı |
| 46.45.10.00 | Ətriyyat və kosmetikanın topdan satışı |

| | |
|---|---|
| 46.46.11.00 | Əczaçılıq məhsullarının və dərman vasitələrinin topdan satışı |
| 46.46.12.00 | Tibb vasitələrinin, o cümlədən ortopediya məmulatlarının topdan satışı |
| 46.47.11 | Məişət mebelinin topdan satışı |
| 46.47.12.00 | İşıqlandırma avadanlığının topdan satışı |
| 46.47.13.00 | Xalı və xalçaların topdan satışı |
| 46.48.10.00 | Saatların və zərgərlik məmulatlarının topdan satışı |
| 46.49.11.00 | Kəsici məmulatların və evdə işlədilən metal məmulatların topdan satışı |
| 46.49.12.00 | Hörmə məmulatların, mantar məmulatların, çəllək məmulatı və sair ağacdan hazırlanan məmulatların topdan satışı |
| 46.49.19.00 | Digər qruplara daxil edilməyən məişət məmulatı və avadanlığının topdan satışı |
| 46.49.21.00 | Kitabların topdan satışı |
| 46.49.22.00 | Jurnalların və qəzetlərin topdan satışı |
| 46.49.23.00 | Dəftərxana ləvazimatının topdan satışı |
| 46.49.31.00 | Musiqi alətlərinin və partituraların topdan satışı |
| 46.49.32.00 | Oyun və oyuncaqların topdan satışı |
| 46.49.33.00 | İdman mallarının, o cümlədən velosipedlərin topdan satışı |
| 46.49.34.00 | Dəri məmulatı və yol ləvazimatlarının topdan satışı |
| 46.49.35.00 | Poçt markaları və sikkələrin topdan satışı |
| 46.49.36.00 | Suvenirlərin və bədii məmulatların topdan satışı |
| 46.49.39.00 | Digər qruplara daxil edilməyən sair istehlak məmulatlarının topdan satışı |
| 46.51.10.00 | Kompüterlərin, kompüter periferiya avadanlığı və proqram təminatının topdan satışı |
| 46.52.11.00 | Telekommunikasiya avadanlıqlarının və hissələrinin topdan satışı |
| 46.52.12.00 | Elektron avadanlıqların və hissələrin topdan satışı |
| 46.52.13.00 | Yazılmamış audiolent və videolentlərin və kassetlərin, maqnit və optik disklərin, kompakt və rəqəmli videodisklərin topdan satışı |
| 46.61.11.00 | Kənd və meşə təsərrüfatı maşınlarının, avadanlıqlarının və ehtiyat hissələrin, o cümlədən traktorların topdan satışı |
| 46.61.12.00 | Otbiçən maşınların və şitil əkən maşınların, avadanlıqların və ehtiyat hissələrin topdan satışı |
| 46.62.11.00 | Ağacı emal etmək üçün dəzgahların topdan satışı |
| 46.62.12.00 | Metalı emal etmək üçün dəzgahların topdan satışı |
| 46.62.19.00 | Sair materialları emal etmək üçün dəzgahların topdan satışı |
| 46.63.10.00 | Mədənçıxarma sənayesi, tikinti və mülki-tikinti üçün maşınların topdan satışı |
| 46.64.10.00 | Toxuculuq sənayesi üçün maşınların, tikiş və toxuculuq maşınlarının topdan satışı |
| 46.65.10.00 | Ofis mebelinin topdan satışı |
| 46.66.10 | Sair ofis maşınlarının və avadanlıqlarının topdan satışı |
| 46.69.11.00 | Avtomobillər, motosikletlər və velosipedlərdən başqa, nəqliyyat vasitələrinin topdan satışı |
| 46.69.12.00 | Maşın və avadanlıqla əlaqədar olan istismar materiallarının və ləvazimatların topdan satışı |

| | |
|---|---|
| 46.69.13.00 | Qaldırıcı-nəqliyyat avadanlığının topdan satışı |
| 46.69.14.00 | Qida məhsullarının və tütünün istehsalı üçün maşınların topdan satışı |
| 46.69.15 | Peşəkar elektrik maşınlarının, aparat və materialların topdan satışı |
| 46.69.19.00 | Sair ümumi və xüsusi məqsədlər üçün maşınların, cihaz və avadanlıqların topdan satışı |
| 46.71.11.00 | Bərk yanacaqların topdan satışı |
| 46.71.12.00 | Benzinin, o cümlədən aviasiya benzininin topdan satışı |
| 46.71.13.00 | Sair maye və qazşəkilli yanacaqların və buna bənzər məhsulların topdan satışı |
| 46.72.11.00 | Dəmir filizlərinin topdan satışı |
| 46.72.12.00 | Əlvan metal filizlərinin topdan satışı |
| 46.72.13.00 | İlkin formada olan qara metalların topdan satışı |
| 46.72.14.00 | İlkin formada olan əlvan metalların topdan satışı |
| 46.73.11.00 | Emal edilməmiş ağacın topdan satışı |
| 46.73.12.00 | Ağacın ilkin emalı məhsullarının topdan satışı |
| 46.73.13.00 | Santexnika avadanlıqlarının topdan satışı |
| 46.73.14.00 | Boya, lak və emalların topdan satışı |
| 46.73.15.00 | Təbəqə şüşələrin topdan satışı |
| 46.73.16.00 | Sair tikinti materiallarının topdan satışı |
| 46.73.17.00 | Divar kağızlarının topdan satışı |
| 46.73.18.00 | Döşəmə örtüklərinin topdan satışı (xalçalardan başqa) |
| 46.74.11.00 | Dəmir məmulatlarının topdan satışı |
| 46.74.12.00 | Su kəmərləri və istilik avadanlıqları və materiallarının topdan satışı |
| 46.74.13.00 | Əl alətlərinin topdan satışı |
| 46.75.11.00 | Gübrələrin və aqrokimyəvi məhsulların topdan satışı |
| 46.75.12 | Sənaye kimyəvi maddələrin topdan satışı |
| 46.76.11.00 | Kağız və kartonun topdan satışı |
| 46.76.12.00 | Toxuculuq liflərinin topdan satışı |
| 46.76.13.00 | İlkin formada plastmas və rezin məmulatların topdan satışı |
| 46.76.19.00 | Kənd təsərrüfatı məhsullarından başqa, digər qruplara daxil edilməyən sair aralıq məhsulların topdan satışı |
| 46.77.10.00 | Tullantı və qırıntıların topdan satışı |
| 46.90.10.00 | İxtisaslaşdırılmamış topdan satış |

**Avtonəqliyyat vasitələrinə texniki qulluq göstərilməsi və onların təmiri üzrə xidmətlərin siyahısı**

| **Məhsul Növləri Təsnifatı üzrə kodu** | **Məhsul Növləri Təsnifatı üzrə adı** |
|---|---|
| A | B |
| 45.20.11.00 | Minik və yüngül yük avtonəqliyyat vasitələrinin elektrik sisteminin, şin və |

| | |
|---|---|
| | gövdələrin təmiri üzrə xidmətlər istisna olmaqla, adi texniki qulluq və təmir üzrə xidmətlər |
| 45.20.12.00 | Minik və yük avtonəqliyyat vasitələrinin elektrik sisteminin təmiri üzrə xidmətlər |
| 45.20.13.00 | Minik və yük avtonəqliyyat vasitələrinin şinlərinin təmiri, o cümlədən təkərlərinin tənzimlənməsi və balanslaşdırılması üzrə xidmətlər |
| 45.20.14.00 | Minik və yük avtonəqliyyat vasitələrinin gövdələrinin təmiri üzrə xidmətlər və oxşar xidmətlər (qapıların, qıfılların, pəncərələrin təmiri, yenidən rəngləmə, zədələnmədən sonra təmir) |
| 45.20.21.00 | Sair avtonəqliyyat vasitələrinə elektrik sistemlərinin təmirindən başqa, sadə texniki qulluq və təmir üzrə xidmətlər |
| 45.20.22.00 | Sair avtonəqliyyat vasitələrinin elektrik sistemlərinin təmiri üzrə xidmətlər |
| 45.20.23.00 | Sair avtonəqliyyat vasitələrinin gövdələrinin təmiri üzrə xidmətlər və oxşar xidmətlər (qapıların, qıfılların, pəncərələrin təmiri, yenidən rəngləmə, zədələnmədən sonra təmir) |
| 45.20.30.10 | Maşınların yuyulması və təmizlənməsi |
| 45.20.30.40 | Yolda (avtonəqliyyat vasitələrinə) təcili texniki qulluq göstərilməsi üzrə xidmətlər |
| 45.40.50.00 | Motosikletlərin təmiri və onlara texniki xidmət |

Əlavə 2

Azərbaycan Respublikası Dövlət Statistika Komitəsinin 2024-cü il 18 noyabr tarixli 42/13 nömrəli qərarı ilə təsdiq edilmişdir.

**"Malların satışı, işlərin görülməsi və xidmətlərin göstərilməsi haqqında" 12-ticarət №-li aylıq rəsmi statistika hesabatı formasının doldurulmasına dair**

# G Ö S T Ə R İ Ş

## 1. Ümumi müddəalar

**1.1.** "Malların satışı, işlərin görülməsi və xidmətlərin göstərilməsi haqqında" 12-ticarət №-li aylıq rəsmi statistika hesabatı forması (bundan sonra - hesabat forması) təşkilati-hüquqi formasından və mülkiyyət növündən asılı olmayaraq əsas fəaliyyəti ticarət, avtonəqliyyat vasitələrinə texniki qulluq göstərilməsi və onların təmiri olan hüquqi şəxslər (onların nümayəndəlik və filialları) tərəfindən Dövlət Statistika Komitəsinin internet səhifəsində (www.stat.gov.az) real vaxt rejimində təqdim edilir.

**1.2.** Hesabat forması kiçik, orta və iri sahibkarlıq subyektləri tərəfindən aylıq dövriliklə, mikro sahibkarlıq subyektləri üzrə isə rüblük dövriliklə təqdim edilir.

## 2. Hesabat formasında istifadə edilən əsas anlayışlar

**2.1**. **Pərakəndə ticarət dövriyyəsi** – pərakəndə satış üzrə malların məcmu dəyəri;

**2.2. Pərakəndə satış** – bilavasitə sahibkarlıq fəaliyyəti ilə bağlı olmayan, yalnız şəxsi, ailə, məişət və digər bu kimi məqsədlər üçün malların satışı ilə bağlı ticarət fəaliyyəti;

**2.3. Topdansatış ticarət dövriyyəsi** – topdansatış üzrə malların məcmu dəyəri;

**2.4. Topdansatış** – şəxsi, ailə, məişət və digər bu kimi istehlak təyinatı istisna olmaqla, sahibkarlıq fəaliyyəti məqsədilə malların satışı ilə bağlı ticarət fəaliyyəti;

**2.5. Elektron ticarət** – informasiya sistemlərindən (internet, ekstranet və s.) istifadə edilməklə malların alqı-satqısı üzrə həyata keçirilən fəaliyyət;

**2.6. POS-terminal** – ödəniş kartları vasitəsilə əməliyyatların aparılması üçün nəzərdə tutulmuş avadanlıq.

## 3. Hesabat formasının doldurulmasına dair izahat

### 3.1. I bölmə. Ümumi iqtisadi göstəricilər

**3.1.1.** Hesabat formasının I bölməsində hesabatı təqdim edən statistik vahidin hesabat dövrü üzrə ümumi iqtisadi göstəriciləri əks etdirilir. Bu bölmədə cədvəlin "Əvvəlki ayda" sütunu statistik vahid tərəfindən əvvəlki ayda təqdim olunmuş məlumatlarda dəqiqləşmə aparıldığı təqdirdə doldurulur, belə bir hal baş vermədikdə isə sütun üzrə heç bir qeyd aparılmır.

**3.1.2.** ***1-ci sətirdə*** hesabatı təqdim edən statistik vahid satış məqsədilə kənardan aldığı malların, həmçinin öz istehsalı olan məhsulların satışından, işlərin görülməsindən və xidmətlərin göstərilməsindən əldə etdiyi gəlirlərin məbləğini (qaytarılan mallar və ticarət güzəştləri nəzərə alınmaqla, ƏDV və aksiz vergisi çıxılmaqla) əks etdirir. Satış vəsaitin mal satanın hesabına daxil olub-olmamasından asılı olmayaraq, mülkiyyət hüququnun sifarişçiyə keçdiyi anda qeydə alınır. Satış məqsədilə kənardan alınmış malların satışından əldə edilən gəlirin dəyəri malların alış dəyərini və ticarət əlavəsini özündə birləşdirir. ***1.1-ci sətirdə*** pərakəndə və topdansatış ticarət fəaliyyətindən, ***1.2-ci sətirdə*** avtonəqliyyat vasitələrinə texniki qulluq göstərilməsi və onların təmiri üzrə xidmətlərdən, ***1.3-cü sətirdə*** kənd təsərrüfatı, ***1.4-cü sətirdə*** sənaye, ***1.5-ci sətirdə*** tikinti, ***1.6-cı sətirdə*** nəqliyyat, ***1.7-ci sətirdə*** isə digər fəaliyyət növləri üzrə əldə edilmiş gəlirin məbləği qeyd edilir.

**3.1.3.** ***2-ci sətirdə*** 1-ci sətirdən malların ixracından və qeyri-rezidentlərə göstərilmiş xidmətlərdən gəlirin məbləği göstərilir. İxrac edilən malların (işlərin, xidmətlərin) dəyəri müqavilədə göstərilən qiymətlər əsasında, malın göndərilmə tarixinə Azərbaycan Respublikasının Mərkəzi Bankının rəsmi məzənnəsi ilə manata çevrilməklə göstərilir.

**3.1.4.** ***3-cü sətirdə*** 1.1-ci sətirdən statistik vahidin topdansatış ticarətdə müqavilə əsasında vasitəçilik fəaliyyəti nəticəsində ƏDV və aksiz vergisi çıxılmaqla əldə etdiyi gəlir göstərilir.

**3.1.5.** ***4-cü sətirdə*** ƏDV və aksiz vergisi daxil olmaqla ümumi pərakəndə ticarət dövriyyəsi, ***4.1-ci sətirdə*** ümumi pərakəndə ticarət dövriyyəsindən ərzaq malları, içkilər və tütün məmulatları üzrə dövriyyə göstərilir.

**3.1.6.** ***5-ci sətirdə*** ümumi pərakəndə ticarət dövriyyəsindən elektron ticarət dövriyyəsi, ***6-cı sətirdə*** isə POS-terminal vasitəsilə aparılan ödənişlərin dəyəri göstərilir.

**3.1.7.** ***7-ci sətirdə*** hesabat dövrünün sonuna statistik vahidin pərakəndə ticarət müəssisəsində ƏDV və aksiz vergisi daxil olmaqla mal ehtiyatlarının qalığı göstərilir.

**3.1.8.** ***8-ci sətirdə*** ƏDV və aksiz vergisi daxil olmaqla ümumi topdansatış ticarət dövriyyəsi, ***8.1-ci sətirdə*** isə ondan ərzaq malları, içkilər və tütün məmulatları üzrə dövriyyə göstərilir.

**3.1.9.** ***9-cu sətirdə*** ümumi topdansatış ticarət dövriyyəsindən elektron ticarət dövriyyəsi göstərilir.

**3.1.10.** ***10-cu sətirdə*** hesabat dövrünün sonuna statistik vahidin topdansatış ticarət müəssisəsində ƏDV və aksiz vergisi daxil olmaqla mal ehtiyatlarının qalığı göstərilir.

**3.1.11.** ***11-ci sətirdə*** ƏDV daxil olmaqla əhaliyə göstərilmiş ödənişli xidmətlərin dəyəri, ***11.1-ci sətirdə*** isə əhaliyə göstərilmiş ödənişli xidmətlərə görə elektron ödəmələrin dəyəri göstərilir.

**3.1.12.** ***12-ci sətirdə*** ƏDV daxil olmaqla ictimai iaşənin dövriyyəsi göstərilir. Bu sətirdə statistik vahidin iaşə obyektində həm öz istehsalı olan kulinariya məhsullarının satışının, həm də kənardan alınaraq emal olunmadan satılmış malların, içki və tütün məmulatlarının dəyəri göstərilir.

**3.2. II bölmə. Satılmış malların və göstərilmiş xidmətlərin strukturu**

**3.2.1.** Bu bölmədə statistik vahidin hesabat dövründə satdığı malların və göstərdiyi xidmətlərin bölgüsü yazılır. Mal və xidmətlərin bölgüsü Dövlət Statistika Komitəsi

kollegiyasının 2018-ci il 31 oktyabr tarixli 9/2 nömrəli qərarı ilə təsdiq edilmiş "Məhsul Növləri Təsnifatı" əsasında tərtib edilərək hesabat formasına əlavə edilmiş siyahıya uyğun aparılır.

**3.2.2.** ***Bölmənin "A" sütununda*** mal və xidmət növlərinin kodları, ***"B" sütununda*** adları yazılır.

**3.2.3.** ***"C" sütununda*** satışın pərakəndə və ya topdansatış qaydada həyata keçirilməsini, habelə xidmət göstərilməsini müəyyən etmək məqsədilə aşağıdakı şərti kodlardan istifadə edilir: xidmətlər üzrə - "60", pərakəndə satış üzrə - "70", topdansatış üzrə - "80".

**3.2.4.** ***1-ci və 2-ci sütunlarda*** satılmış malların və göstərilmiş xidmətlərin mal və xidmət növləri üzrə dəyəri göstərilir.

**3.2.5.** ***3-cü sütunda*** hesabat dövrünün sonuna ticarət müəssisəsində mal ehtiyatlarının mal növləri üzrə qalığının dəyəri göstərilir. Xidmətlər üzrə bu sütun doldurulmur.

**3.2.6.** Hesabat formasının ***I və II bölmələrinin*** göstəriciləri arasında aşağıdakı riyazi əlaqələr vardır:

**3.2.6.1.** ***I bölmənin 1-ci və 2-ci sütunları üzrə*****:** 1) 1.2-ci sətrin məlumatları ***II bölmənin*** müvafiq sütunları üzrə "C" sütununda "60" kodu ilə qeyd edilmiş sətirlərin məlumatlarının cəminə, 2) 4-cü sətrin məlumatları ***II bölmənin*** müvafiq sütunları üzrə "C" sütununda "70" kodu ilə qeyd edilmiş sətirlərin məlumatlarının cəminə, 3) 8-ci sətrin məlumatları ***II bölmənin*** müvafiq sütunları üzrə "C" sütununda "80" kodu ilə qeyd edilmiş sətirlərin məlumatlarının cəminə bərabər olmalıdır.

**3.2.6.2.** ***I bölmənin 1-ci sütunu üzrə*****:** 1) 7-ci sətrin məlumatları ***II bölmənin*** 3-cü sütunu üzrə "C" sütununda "70" kodu ilə qeyd edilmiş sətirlərin məlumatlarının cəminə, 2) 10-cu sətrin məlumatları ***II bölmənin*** 3-cü sütunu üzrə "C" sütununda "80" kodu ilə qeyd edilmiş sətirlərin məlumatlarının cəminə bərabər olmalıdır.